*Havanı çirklənmədən qoruyaq*

# Tüstü insan orqanizminə ziyandır

*Azərbaycanın dilbər guşəsi olan qədim Qəbələ hazırda geniş imkanlara malik turizm diyarına çevrilmişdir. Son 13 il ərzində Qəbələdə xeyli sayda otel, istirahət mərkəzi, pansionat tikilib istifadəyə verilmişdir. Bu ilin ötən dövrü ərzində rayonumuzun istirahət mərkəzlərinə keçən ilkindən də çox turist gəlmişdir. Qəbələnin füsunkar təbiəti, təmiz havası, yaşıl libaslı meşələri tək yaz-yay aylarında deyil, ilin bütün fəsillərində bura gəlib-gedən qonaqların sayının artmasına səbəb olmuşdur.*

Qəbələ rayonunda atmosfer havasını çirkləndirən sənaye və istehsalat müəssisələri demək olar ki, yoxdur. Mövcud istehsal müəssisələrində olan tüstü borularında zərərli qazların və tozun təmizlənməsi üçün qurğular quraşdırılmışdır. Lakin payız fəslinin gəlməsi, ağaclardan yarpaqlarının tökülməsi ilə əlaqədar Qəbələ şəhərində havanın yağmursuz və günəşli günlərində, xüsusilə günortadan sonra və axşam tərəfi tüstü dumanına bürünməsi halları müşahidə olunur. Buna əsas səbəb əksər vətəndaşların ağac xəzəllərini və məişət tullantılarını öz həyətlərində və yaxud küçədə yığaraq yandırmasıdır. Allergik xəstəliklərin sürətlə artmasında məişət tullantıları və turşu yağışı ilə çirklənmiş ağac yarpaqlarının yandırılması nəticəsində əmələ gələn allergen və kanserogenlərin mühüm rolu vardır. Bu da astma, ürək-damar, ekzema, neyrodermit və digər xəstəliklərin çoxalmasına səbəb olur.

Odur ki, yarpaqların təbii utilləşməsinə, yəni çürüməsinə daha geniş yer verilməlidir.

Ərazinin havası tüstü və tozla çirkləndikdə həmin ərazidə günəş şüasının intensivliyi zəifləyir, ultrabənövşəyi radiasiya kəskin surətdə azalır. Orqanizmin inkişafı üçün, xüsusilə uşaq yaşlarında bu şüaların böyük əhəmiyyəti vardır.

Xəzəl və məişət tullantılarının yanması nəticəsində tərkibində bir çox konserogen maddələr və zərərli qazlar olan tüstü hava ilə birlikdə insan orqanizminə daxil olur. Bu cür hava ilə nəfəs aldıqda insan orqanizminin oksigenlə təchizatı pozulur, tənəffüs orqanlarının müxtəlif xəstəliklərinin yaranmasına səbəb olur. Tüstü ilə çirklənmiş hava xüsusilə yaşlı insanlara və körpə uşaqlara daha çox mənfi təsir göstərir. Odur ki, yaşadığımız ərazidə atmosfer havasının tüstü ilə çirklənməsinin qarşısının alınması hamımızın borcudur.

«Atmosfer havasının mühafizəsi haqqında» Azərbaycan Respublikası Qanununun 16-cı maddəsində qeyd edilir:

—Müəssisə və təşkilatların, yaşayış məntəqəsinin ərazisində atmosfer havasına zərərli təsir göstərən istehsalat və məişət tullantılarının saxlanılması, yandırılması və zərərsizləşdirilməsi qanunvericiliklə müəyyənləşdirilmiş qaydada həyata keçirilir;

—həmin tullantıların xüsusi qurğular olmadan yandırılmasına icazə verilmir;

—hər bir vətəndaş öz həyətində, yaşadığı küçədə məişət tullantılarının yandırılmasına yol verməməlidir.

Şəhərin bəzi sakinləri isə bu qanunun tələblərinə əməl etmirlər. Lakin həmin vətəndaşlar bilməlidirlər ki, məişət tullantıları və ağac xəzəlləri yığılaraq ərazidəki zibilxana sahəsinə daşınmalı və yaxud həyətlərində toplanaraq basdırılmalıdır.

Rayon gigiyena və epidemiologiya mərkəzinin əməkdaşları son günlər bu sahədə müəyyən profilaktik işlər görməyə başlamışlar. Belə ki, bu məsələ ilə əlaqədar yaşayış məntəqələrində əhali arasında maarifləndirmə işi aparılır, məişət tullantıları və ağac xəzəlləri tüstüsünün insan orqanizminə zərərli fəsadları izah olunur. Rayon kommunal və mənzil istismarı müəssisəsinə şəhər sakinlərinin həyətindən çıxan məişət tullantılarının vaxtlı-vaxtında daşınması işlərinin operativ təşkil olunması istiqamətində tövsiyə olunmuşdur.

**✍ Bəxtiyar MƏMMƏDOV,**
**rayon gigiyena və epidemiologiya mərkəzinin direktoru.**

***REDAKSİYADAN: Əziz qəbələlilər, yaşadığınız ərazidə ağac xəzəllərini, məişət tullantılarını yandıraraq ətraf mühitin çirkləndirilməsinə yol verməyin. Çünki təmiz və saf hava sizin və uşaqlarınızın sağlamlığının qorunması üçün mühüm amildir!***

# Uğurlarımız davam edir

*Azərbaycan Respublikasında idmanın inkişafı ildən-ilə geniş vüsət alır. Müstəqilliyimizi əldə etdiyimiz vaxtdan bu günə qədər Azərbaycan idmançılarının müxtəlif səviyyəli beynəlxalq yarışlarda minlərlə medala layiq görülməsi bunun əyani sübutu, sonuncu Rio-de Janeyro Olimpiya oyunlarında qazanılan medallar isə böyük tarixi nailiyyətdir.*

İdman sahəsində gerçəkləşdirilən dövlət siyasəti, idmanın maddi-texniki bazasının möhkəmləndirilməsi, ölkə başçısı cənab Prezident İlham Əliyevin bu sahəyə göstərdiyi xüsusi diqqət və qayğı, tikilmiş nəhəng idman qurğuları və digər tədbirlər nəticəsində ölkəmiz mötəbər beynəlxalq idman yarışlarının keçirildiyi məkana çevrilib.

Yola salmağa hazırlaşdığımız 2016-cı il də Qəbələnin idman tarixində bir çox beynəlxalq və respublika səviyyəli yarışların keçirilməsi ilə yadda qalmasıyla yanaşı qazanılmış uğurlar, əldə edilmiş medalların sayına görə də əlamətdar il olmuşdur. İdmanın taekvondo, şahmat, futbol, voleybol, qol güləşi, sərbəst güləş, cüdo, qocyu-ryu, karate-do, boks, çoxmübarizəli idman döyüş növləri və sair idman növləri üzrə idmançılarımız diplom və medallarla rayonumuzun idman şərəfini yüksəltmişlər.

Bu uğurların sırasına bu yaxınlarda Tovuz rayonunda Yeniyetmələrin X Respublika Oyunlarının proqramına daxil olan taekvondo idman növü üzrə qazanılmış nailiyyətlərimizi də əlavə etsək deyə bilərik ki, hər bir idman növü üzrə medallarımız olmuşdur. Final yarışlarında Fidan Məmmədova II yeri qazanaraq gümüş medalın sahibi olmuşdur. Məşqçi-müəllim Xəyal Əzizovun yetirməsi olan Fidan lap kiçik yaşlarından bu idman növünü seçərək yorulmadan məşqlərini davam etdirmişdir ki, bu da gərgin keçən final döyüşündə öz nəticəsini göstərmişdir.

Qarşıda isə bizi daha çox yarışlar, birinciliklər və qələbə dolu günlər gözləyir. Bütün idmançılarımızı əldə etdikləri uğurlar münasibətilə təbrik edir və daha inamla mübarizə aparmağı, rayonun idman şərəfini daha yüksəklərə ucaltmağı arzulayırıq.

**✍ Elçin OSMANOV,**
**gənclər və idman idarəsinin aparıcı məsləhətçisi.**

# Dövlət insan hüquqlarının təminatçısıdır

(Əvvəli 3-cü səhifədə).

1996—1997-ci illərdə Azərbaycan insan hüquq və azadlıqlarının demokratik təsisatların təminatı ilə bağlı mühüm beynlxalq konvensiyalara, sazişlərə qoşulmuşdur.

1998-ci ilin 22 fevralında xalqımızın ümummilli lideri Heydər Əliyev «Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında», həmin ilin iyun ayının 18-də «Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı haqqında» fərman və sərəncam imzalamışdır. Bu mühüm sənədlərdə insan hüquqlarının təminatı yönümündə həyata keçirilən tədbirlərin mahiyyəti və konsepsiyası müəyyən edilmişdir. İnsan hüquqları sahəsində proqram rolu oynayan bu sənədlərlə insan hüquqları məsələsi ümumdövlət səviyyəsinə qaldırılmışdır.

**«Qəbələ».**





# qəzetinə

## 2017-ci il üçün abunə yazılışı davam edir.

## İllik abunə qiyməti 30 manat, yarımillik 15 manatdır.

*Abunə qəzetin «Kapitalbank»ın Qəbələ filialındakı hesabına köçürmə və ya redaksiyada nəqd ödəmə yolu ilə aparılır.*

*Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.*

Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).

Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 671-06-94.


# ELAN

Qəbələ RayonAqrar İslahat Komissiyasının 26 fevral 2001-ci il tarixli 03 saylı qərarilə Qəbələ şəhər sakini **Hüseynov Teymur Canan oğluna** verilmiş JN seriyalı 2343 F nömrəli (kod 40601004) **Torpağın mülkiyyət hüququna dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN

Qəbələ Rayon İcra Hakimiyyətinin rəhbərliyi, aparatın kollektivi **Varis Yaqubova** və **Tahir Hacıyevə** əzizləri

**TOFİQ HACIYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

«Qəbələ» qəzeti redaksiyasının kollektivi **Varis Yaqubova** və **Tahir Hacıyevə** əzizləri

**TOFİQ HƏKİMİN**

vəfatfından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qəbələ Rayon Mərkəzi Xəstəxanasının kollektivi iş yoldaşları **Orxan Məmmədova** və **Svetlana Musabəyovaya** əzizləri

**ƏZİZƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

Qəbələ Rayon Mərkəzi Xəstəxanasının kollektivi iş yoldaşları **Arzu Qasımova** dayısı

**NABİR TAĞIYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qəbələ Rayon Mərkəzi Xəstəxanasının kollektivi iş yoldaşları **Səadət İsrafilovaya** atası

**FAİQ KİŞİNİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qəbələ Rayon Mərkəzi Xəstəxanasının kollektivi iş yoldaşları **Vəzifə Mirzəyevaya** anası

**HƏNİFƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


*Redaktor*
*Varis Yaqubov*

*TƏSİSÇİLƏR:*
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*
*Növbətçi redaktor*
*Qüdrət Səmədov.*

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Azərmedia» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
*Dizayner Rais Rəşidov*
Tiraj 1800.
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.